2021.- 5 sentyabr.- S.7.

AZƏRBAYCAN www.azerbaijan-news.az




# Sevginin rəmzi

**Bütün bitkilər və çiçəklər kimi qızılgülün də tarixi insanlıq tarixindən əvvəl başlayır. Müxtəlif filiz yataqlarında tapılan qızılgüllərin yaşı 25-40 milyon il əvvələ gedib çıxır. Mədəniləşdirilmiş qızılgülün yaşı isə təqribən 5000 ildir. Yazılı tarixdə qızılgül haqqında ilk qeydlər 5000 il əvvəl Mesopotamiya gil lövhələrində tapılıb. Bir çox tarixçilər qızılgül suyunun Babil kimi qədim sivilizasiyalarda istifadə olunduğunu ehtimal edirlər.**



Qədim Misirdə qızılgülü təsvir edən ən qədim heroqlif eramızdan əvvəl 1400-cü ilə aiddir. Daha sonra eramızdan əvvəl 400-200-cü illərə aid olan Misir türbəsində qızılgül çələnginə rast gəlinir. Kleopatra dövründə qızılgülün adı tez-tez xatırlanır. Kleopatra qızılgülləri çox sevirdi. Onun südlü hamamları gül ləçəkləri ilə bəzənir, ayaqlarının altına gül ləçəkləri səpilirdi.

Qızılgül Çin mədəniyyətində xüsusi əhəmiyyətə malikdir. Konfutsi Çin imperatorunun bağlarındakı qızılgüllərlə bağlı yüzlərlə kitabın olduğunu qeyd edir.

Romalılar qızılgülü yunanlar vasitəsilə tanıyıblar. Kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə üstünlük verən romalılar bu güllə tanış olduqdan sonra buğda sahələri və meyvə bağlarından başqa böyük ərazidə qızılgül bağları da salardılar. Qızılgüllərin istifadəsi getdikcə daha çox genişlənib. Gözəl ətri olduğu üçün xanımlar onlardan ziyafətlərdə, məclislərdə istifadə edir, bu gülü gözəllik reseptlərinə daxil edirdilər. Romalılar qızılgül suyunun antiseptik və antibakterial xüsusiyyətlərindən xəbərdar idilər. Buna görə də onlar əllərini qızılgül suyu ilə yuyur və bu su ilə vanna qəbul etməkdən zövq alırdılar. Beləliklə, bütün müsbət keyfiyyətlərinə görə qızılgül əkini və ticarəti artırılır.

Qızılgülü çox sevən və tez-tez bu gülün suyu ilə yuyunan imperatriça Jozefinin (Fransa imperatoru Napoleon Bonapartın həyat yoldaşı) dövründə qızılgül Fransada şöhrət qazanıb. İmperatriça 1798-ci ildə "Malmaison Gardens" kimi tanınan gül bağlarını saldırıb. Arvadının güllərə olan marağını dəstəkləyən Napoleon uzaq ölkələrə üzən kapitanlarına yeni gül növləri tapdıqları halda fidanlarını ölkəyə daşımalarını əmr edib. Beləliklə, kolleksiyadakı çeşid çoxalıb. Ölümünə qədər davam edən 16 il ərzində bu bağlarda 250 müxtəlif növ gül yetişdirilib, xərclərini imperatriça özü ödəyib.

Qızılgülə maraq Fransadan İngiltərəyə keçib. Daha sonra Qərbi Avropa, Amerika və Avstraliya qızılgüldən müxtəlif yollarla faydalanmağa başlayıb. Qədim sivilizasiyaların əksəriyyətində qızılgül suyu dini və mənəvi mərasimlərdə istifadə edilib. Erkən xristian dövründə bütpərəst bir adət kimi qəbul edildiyi üçün qızılgül suyunun istifadəsinin qarşısı alınıb. Lakin sonradan xristianlıq da digər dinlər kimi qızılgülü müqəddəs simvollarına daxil edib.

Orta əsrlərdə qızılgülün müalicəvi xüsusiyyətləri önə çıxıb. Orta əsrlər və İntibah dövründə qızılgül depressiya üçün ən məşhur müalicə üsulu olub. Orta əsrlərdə Avropada unudulmuş qızılgül bağları səlibçilərin Yaxın Şərq ölkələrindən məmləkətlərinə apardıqları qızılgül fidanları ilə yenidən canlanmağa başlayıb.

## Yalnız Türkiyədə

**Qızılgül növlərinin arasında çox diqqət çəkən, maraq yaradan güllərdən biri də qara qızılgüldür. Bu gül dünyada yalnız Türkiyənin Halfeti rayonunda yetişir. Bu gülün yeganə olaraq burada yetişə bilməsinin səbəbi bölgənin sahib olduğu subtropik iqlimdir.**



Qara qızılgül qönçə olarkən qara rəngdə olur, açıldıqca isə tünd qırmızı rəngə çevrilir. Yalnız Halfeti rayonunda qara qızılgül həm qöncə, həm də açılmış vəziyyətdə elə qara rəngdə olur. Bu gül kolunu başqa ərazidə əkərkən onun rəngi dəyişir. Qara qızılgülün toxumunu başqa ərazilərdə əkdikdə onun rəngi qırmızıya çevrilir.

Qara qızılgülün ən fərqli cəhətlərindən biri onun uzunömürlü olmasıdır. Bu gül canlılığını uzun müddət qoruya bildiyi üçün onu "solmayan qızılgül" də adlandırırlar.

## Milli gül

**Qızılgül həyatın, sevginin, sədaqətin, gözəlliyin və əbədiyyətin simvolu sayılır. Güllərin şahı sayılan qızılgül o qədər çox sevilir ki, dünyanın bir çox ölkələri onu "milli gül" elan ediblər.**



ABŞ-da bu gülə olan sevginin nəticəsidir ki, 1986-cı ildə ona "milli gül" adı verilmişdi.

Slovakiyada qızılgülün "milli gül" kimi qəbul edilməsi bu gülün ilk dəfə burada meydana gəlmə fikirləri ilə izah edilir. Məlumatlara görə, bu gözəl çiçək təxminən 35 milyon il əvvəl ilk dəfə indiki Slovakiya ərazilərində meydana gəlib.

Qızılgül ABŞ və Slovakiyadan başqa, İngiltərədə, İranda, Maldivdə və digər ölkələrdə "milli gül" kimi qəbul edilir.

## Dünyanın ən böyük qızılgül kolu

**Ginnessin Rekordlar Kitabına görə, dünyanın ən böyük qızılgül kolu ABŞ-ın Tombstone şəhərindədir. Bu kol 9000 kvadratmetr ərazini əhatə edir.**



Kol 1885-ci ildə Tombstonedə əkilib. Şəhərin günəşli iqlimində hələ də çiçəklənən bu kolu Şotlandiyaəsilli qadın əkib. O, bu gülü ABŞ-a gələrkən yaşadıqları pansionatın yanında əkib. 1930-cu illərdə artıq böyüyən qızılgülün sahəsi turistlər üçün populyar bir məkana çevrilib. Kol o qədər böyükdür ki, onun budaqları üfüqi şəkildə yayılaraq böyük bir kafenin damını örtüb.

Minlərlə ağ çiçəyi olan bu kol ətrafa xoş qoxu yayır. Bu kolun çiçəklənmə mövsümü təxminən altı həftə davam edir.

## Dünyanın ən gözəl qızılgülləri

**Hazırda bu əsrarəngiz bitkinin 300-ə yaxın növü və 3000 sortu var.**

Dünyada qızılgülün bütün növləri özünəməxsus olsa da, onların arasında bir neçəsi xüsusilə gözəl hesab edilir. Bunlar "Viktor Hüqo", "Vincester Katedrali", "Michelanlgelo", "Qızıl medal", "Qara Baccara" gülləridir.

"Viktor Hüqo" qızılgülü tünd qırmızı rəngə, gözəl qoxuya malikdir. O, yazdan payıza qədər çiçək açır. Bu gülün 25-dən çox ləçəyi olur.

"Vincester Katedrali" gülü ağ ləçəkli, orta ölçülüdür. Xoş qoxusu və zərif gözəlliyi olan bu gül "klassik qırmızı gül"dən uzaqlaşmaq istəyənlər üçün ən düzgün seçim hesab edilir.

Sarı rəngli "Michelangelo" gülü təkcə rəng palitrası ilə deyil, həm də böyük ölçüsü ilə fərqlənir. Limon qoxusu verən bu gülün 40-dan çox böyük ləçəyi var.



"Qızıl medal" adlanan qızılgül böyük və tünd qızılı rəngli ləçəkləri ilə göz qamaşdırır. Mükəmməl bir bağ gülü olan bu gülün yetişdirildiyi ərazidən meyvə qoxusu gəlir.

"Qara Baccara" qızılgülü məxməri, qara rəngə bənzər güldür. 45 ləçəkli bu gül qızılgüllərin əksər növləri kimi bahardan payıza qədər çiçək açır.



## Qızılgül müharibələri

Tarixdə adı qızılgüllə bağlı olan müharibələr də olub. 1400-cü illərdə ingilis taxtı uğrunda Lankaster və York sülalələri arasında gedən müharibəyə "Al və Ağ qızılgül" müharibəsi deyilir. Bu müharibə 30 il (1455-1485) davam edib.

Lankasterlərin emblemi al qızılgül, Yorklarınkı isə ağ qızılgül olduğundan müharibənin adı rəqiblərin embleminin şərəfinə "Al və Ağ qızılgül" adlandırılıb. Bir çox illər ərzində yorklar üstünlüyü əldə saxlamışdılar, amma Henri Tüdor Lankaster 1485-ci ildə Yelizaveta York ilə evləndi. Bu nikah düşmən sulalələrin barışmasına səbəb oldu. Feodal əyanları demək olar ki, bir-birini qırıb qurtardıqdan sonra bu müharibələr başa çatdı. Vuruşan feodal nəsillərindən birinin nümayəndəsi VII Henrix Tüdor qalib gəldi. Onun taxta çıxması ilə İngiltərədə Tüdorlar sülaləsinin hakimiyyəti başladı (1485-1603).

## 1 kiloqramının qiyməti 5 min avrodan baha olan yağ

**Qızılgül bəzi ölkələrdə qızılgül yağı almaq məqsədilə becərilir. 1 kq qızılgül yağı almaq üçün əl ilə 4 ton qızılgül ləçəyi toplamaq lazım gəlir.**

Qızılgül yağının bir kiloqramının qiyməti 5000 avrodan bahadır. Güldən alınan yağ ətriyyatda ən bahalı ətirlərə əlavə edilir. Kişi ətriyyatlarının 46 faizində, qadın ətriyyatlarının isə 98 faizində qızılgül yağı olur. Bu yağlar qızılgüllərin iki - Dəməşq və Sədbərk növlərindən hazırlanır.

Dünya üzrə ildə 3 ton qızılgül yağı istehsal olunur ki, bunun da 50 faizi Türkiyə, 40 faizi Bolqarıstan, 10 faizi isə digər ölkələrin payına düşür.

Qızılgül yağı Azərbaycanda da istehsal edilir. Bu yağın istehsalı üçün "AzRose" MMC Zaqatalada Bolqarıstandan gətirilmiş tinglərdən 82 hektarda "Dəməşq qızılgülü" və 25 hektarda "Lavanda" gülü növləri üzrə gül plantasiyaları salıb. "Dəməşq qızılgülü"ndən istehsal olunan yağ həm məhsuldarlığına, həm də keyfiyyətinə görə ən yaxşısı hesab olunur. Bolqarıstandan gətirilmiş "Lavanda" gülü növünün yağlılıq dərəcəsi Fransa və Türkiyə "Lavanda" növlərindən 20 faiz çoxdur.

## Qızıldan hazırlanan qızılgül

**Qızılgülün "Sara Verdier" növü isə təbiiliklə sənətkarlığın birgə qarışımıdır. İsveçrə sənətkarlığının nümunəsi olan bu gül əsl zərgərlik işidir. O, həqiqi güldən hazırlanır.**



Bu gülün dekorasiyası üçün 24 karatlıq qızıldan istifadə edilir. Gülün ləçəklərinin kənarları qızılla haşiyələnərək dondurulur. Bu gülün hazırlanması üçün gümüşdən də istifadə edilir. Gülün bir ədədinin qiyməti təxminən 120 dollardır. "Sara Verdier" qızılgülü yalnız qırmızı deyil, müxtəlif rənglərdə olması ilə fərqlənir. Bu gülün qırmızıdan başqa, göy, bənövşəyi, qara, ağ rəngləri də var.

## Rəngini dəyişən gül



Sənətçilər və yazıçılar tərəfindən təriflənən, pambıq gülü adlandırılan qızılgül Çində endemik olan ən məşhur çiçəklərdən biridir. Bu gül yalnız gözəl ləçəkləri ilə deyil, həm də rənginin dəyişməsi qabiliyyəti ilə də məşhurdur.

Konfederasiya gülü olaraq da tanınan pambıq gülü səhər ağ və ya açıq çəhrayı rəngli olur, axşam isə qırmızıya çevrilir. Çinin mərkəzindəki Hunan əyalətində əkilən bu çiçək bəzək məqsədləri üçün Asiya ölkələrində geniş şəkildə becərilir və istifadə olunur.

## Qızılgülün idxalına ilk dəfə XVI əsrdə başlanılıb

**Yunan şairi Anakreon hesab edib ki, birinci qızılgül kolu Afroditanın dəniz fəlakəti zamanı bitib. Qızılgül Yerin böyük ilahəsi olan Demetorun da simvolik atributu olub.**

Yabanı qızılgülün bəzi sortlarına hətta Şimal Qütb dairəsində də təsadüf edilib.

Qızılgül əvvəllər yalnız var-dövlət simvolu kimi çarların həyatində olardı. Sonradan isə onlar hər kəsin bağının bəzəyinə çevrilib.

Qızılgül ləçəklərindən hazırlanmış dadlı mürəbbə Azərbaycanda çay süfrələrinin bəzəyidir.

Si adlı çox maraqlı qızılgül sortunun qönçələrinin ölçüsü çəltik dənəsi boydadır.

Çay qızılgülünü rənginə görə deyil, təzə dəmlənmiş yüngül çay ətri gəldiyi üçün belə adlandırıblar.

Ətraf mühitdən asılı olaraq, efiryağlı qızılgül 30-50 il ömür sürür. Bu dövrdə bitkinin budaqları tez-tez dəyişir.

Qızılgülün idxalına ilk dəfə XVI əsrin əvvəllərində başlanılıb.

Dünyada ən çox Müqəddəs Valentin Günündə qızılgül satılır.

Al qırmızı rəngli qızılgülün kökü Çinə gedib çıxır.

*İlhamə İSABALAYEVA,*
*"Azərbaycan"*